Almaniya Federativ Respublikasının
Səfirliyi
Bakı

Aktuallaşdırılmışdır: Yanvar 2025

# Dil kursu 90 gündən artıq – məlumat vərəqəsi

Xahiş olunur əvvəlcə milli viza üçün müraciət etməyə dair **ümumi məlumatları** oxuyun.

Əgər Siz Almaniyada hər hansı təhsildən asılı olmayaraq 90 gündən artıq dil kursu çərçivəsində alman dili biliklərinizi mükəmməlaşdirmək istəyirsinizsə, bu halda Siz milli viza üçün müraciət etməlisiniz.

90 gündən artıq dil kursunda iştirak üçün milli viza almaqdan ötrü **yalnız kənar viza xidməti olan „VisaMetric“ şirkətinə** müraciət edilməlidir. Viza sənədlərinin qəbulu mərkəzinin ünvanı:
**D. Əliyeva küç., 106, Winter Park Plaza, birinci mərtəbə, Bakı.**
Qəbul vaxtının təyin olunması üçün aşağıdakı linkdən istifadə edə bilərsiniz:
https://www.visametric.com/Azerbaijan/Germany/az/p/qebulun-goeruesuen-teyin-edilmesi

Sənədlərə baxılma müddəti orta hesabla **2-8 həftədir.**

**Viza almaq üçün aşağıdakı sənədlər tələb olunur:**

| **Viza ərizəsi üçün sənədlərin səyahısı**<br>Hər bir ərizə ilə aşağıdakı sənədlər tam şəkildə təqdim edilməlidir. |
|---|
| ☐ Ən azı 2 boş vərəqi olan etibarlı xarici pasport *(xarici pasportun şəkil olan səhifəsi və əvvəlki Şengen vizalar və, möhürlər səhifələrin 1 ədəd surəti)* |
| ☐ Şəxsiyyət vəsiqəsi və ya əcnəbilərə verilən etibarlılıq müddəti qüvvədə olan Azərbaycanda ayaşamaq icazəsi*(əsli + 1 ədəd surəti)* |
| ☐ alman dilində tam şəkildə doldurulmuş və şəxsən imzalanmış milli viza üçün ərizə forması |
| ☐ 2 ədəd biometrik pasport şəkli (3,5 x 4,5 sm; 6 aydan köhnə olmamalı) |
| ☐ miqrasiya qanunun §54 maddəsinə uyğun olaraq viza prosedurunda saxta məlumatların verilməsi haqqında imzalanmış bəyannamə |
| ☐ Viza rüsumu (bax: milli viza ilə bağlı ümumi məlumatlar) |
| ☐ Dil məktəbinin ünvanı, kursun keçirildiyi müddət və həftəlik dərs saatlarının sayı (həftədə ən az 18 dərs saatı olmaqla) qeyd olunan təsdiq sənədi *(əsli və ya pdf sənəd+1 ədəd surəti)* |
| ☐ Dil kursunun rüsumunun tam odənildiyini təsdiq edən sənəd *(əsli və ya pdf sənəd+1 ədəd surəti)* |
| ☐ Yaşayacağınız yer barədə sənəd *(əsli və ya pdf sənəd+1 ədəd surəti)* |
| ☐ Bu günədək əldə etdiyiniz alman dili biliklərinə dair təsdiq sənədi, məs.: dil kursunda iştirak haqqında, dil sertifikatı *(əsli + 1 ədəd surəti)* |
| ☐ Orta/ali təhsili bitirməyə dair təsdiq sənədi (Diplom, Atestat) *(əsli + 1 ədəd surəti)* |
| ☐ Gələcək planlar haqqında məlumat əks olunmaqla istədiyiniz dil kursunda iştiraka dair motivasiya məktubu |

| | |
|---|---|
| ☐ | səfər üçün tibbi sığorta (sığorta ödənişinin minimal məbləği 30.000 Avro və bütün Şengen dövlətləri üçün etibarlı olmalı və nəzərdə tutulan səfər tarixindən etibarlı olmaqla bütün qalma müddətini əhatə etməlidir). |

| **Almaniyada qalmaq xərclərinizin maliyyələşdirilməsi barədə sənəd (qalacağınız birinci il üçün və ya 12 aydan az davam etdiyi təqdirdə dil kursunun müddəti üçün):** | |
|---|---|
| ☐ | Almaniyadakı dondurulmuş bank hesabında 13.092,- avro olmasını və hər ay yalnız 1.091,- avro götürüləcəyini təsdiq edən sənəd<br>**və ya** |
| ☐ | „Almaniyada Yaşamaq haqqında Qanunun“ 66-68 §§-da qeyd olunmuş öhdəlik haqqında rəsmi bəyanat (6 aydan köhnə olmamaqla; öhdəlikdə səfərin məgsədi: dil kursu göstərilməklə və ödəmə qabiliyyəti sübut olunmalıdır) *(əsli + 1 ədəd surəti)*<br>**və ya** |
| ☐ | Dövlət fondlarından biri tərəfindən aylıq 1.091,- Avro məbləğində stipendiyanın verilməsi barədə təsdiq sənədi *(əsli + 1 ədəd surəti)* |